# Nəhc-ül-Bəlağə

İmam Əli əleyhissəlamın kəlamları və məktubları

# 31-ci məktub

«Əl-Məhdi (əc)» İslam Maarif Mərkəzi

2024

# OTUZ BİRİNCİ MƏKTUB

و مِنْ وَصِيَّةٍ لَهُ عَلَيْهِ السَّلام لِلْحَسَنِ بْنِ عَلي عَلَيْهِما السلام، كتبها إِلَيْهِ بحاضرين عند انْصرافه من صفين

31-ci məktub, İmamın (ə) Siffeyndən qayıdanda (Şam yaxınlığındakı) Hazirin torpağında İmam Həsən Müctəbaya (ə) yazdığı vəsiyyət və tapşırıqlardandır.

## Bu məktubun ümumi məzmunu

İmamın (ə) "Nəhcül-bəlağə"də Malik Əştərə məktubundan sonra ən uzun məktubu olan bu vəsiyyətnamə kamil əxlaq, özünüislah, nəfsi tərbiyə və Allaha doğru mənəvi hərəkət dərsləri toplusudur və otuz hissədən ibarətdir.

İmam (ə) məktubun birinci hissəsində onun ümumi ruhu ilə uyğun gələn çox dolğun ifadələrlə özünü məktubu yazan, oğlunu isə məktubun ünvanlandığı kəs kimi təqdim edib.

İkinci hissədə bu məktub canıyanan və mehriban atanın həddən artıq çox sevdiyi övladına vəsiyyəti kimi təqdim edilib.

Sözügedən məktubun üçüncü hissəsindən onuncu hissəsinə kimi təqvalı olmaq, keçmişdəkilərin tarixinin araşdırılması, bütün işlərdə ehtiyatlı olmaq,

dində elm əldə etmək, çətinliklər qarşısında səbir etmək, Allaha təvəkkül etmək, işləri Ona həvalə etmək, gəncin qəlb və ruhunun hər cür təlimi qəbul etməyə hazır olması, ata olaraq ömrünün bütün təcrübələrini heç bir zəhmətə salmadan oğlunun ixtiyarında qoyması, Allahın kitabı və halal-haramla daha çox tanış olmaq, keçmiş əməlisaleh insanların yolu ilə getmək, şübhələrdən çəkinməyin gərəkliyi barədə tövsiyələr edilib.

İmam (ə) bu vəsiyyətnamənin 11-20-ci hissələrində əvvəlcə insanın bilmədiklərinin bildiklərindən çox olmasını qeyd edib, haqdan sapma barədə xəbərdarlıq edib, İslam Peyğəmbərinə (s) tabe olmağı vurğulayıb, o Həzrətə (s) tabe olmadan heç kəsin bir yerə çata bilməyəcəyini qeyd edib, sonra tövhid məsələsinə təkid edib, Allahın sifətlərinin bəzisini şərh edib, sonra da bir misal ilə dünyanın vəfasızlığından söz açıb.

İmam (ə) daha sonra əziz övladına belə bir dərs verir ki, özünü başqaları barədə mühakimə meyarı etsin, özü üçün bəyəndiyini başqaları üçün də bəyənsin, özü üçün bəyənmədiyini başqaları üçün də bəyənməsin. O Həzrət (ə) həmçinin xudbinlik kimi əxlaqi xəstəliklərdən söz açıb və xalqa xidmət göstərməyi mühüm axirət azuqəsi adlandırıb, axirətin dolanbac yollarında ehtiyatlı olmaq göstərişi verib. Eyni zamanda o Həzrət (ə) duanın əhəmiyyətindən, onun xeyir-bərəkətlərin hamısının açarı olmasından geniş söz açıb və əziz övladına insanın yaradılışında məqsədin bir neçə günlük puç dünya həyatı deyil, əbədi axirət həyatı olduğunu başa salıb.

İmam (ə) bu məktubun 21-30-cu hissələrində ölümün yada salınmasının insanın qəflət yuxusundan oyanmasına səbəb olduğunu bəyan edib və oğlunu dünyapərəstlərin yolu ilə getməkdən çəkindirib, ömürün sürətlə keçməsini xatırladıb, nəfsi təmizləmək, uzun-uzadı arzulardan çəkinmək yollarını göstərib, onun kənarında bir sıra mühüm əxlaqi məsələlərə toxunaraq onlara əməl edilməsini vurğulayıb. O Həzrət (ə) daha sonra din qardaşları ilə davranış qaydalarından danışıb, bu barədə mühüm nüanslara toxunub, insanların hüquqlarının qorunmasına, müsəlman qardaşlara yaxşılıq etməyə təkid edib. İmam (ə) daha sonra ruzi əldə etmək üçün hərislik göstərməməkdən danışıb, ondan sonra isə qadınların hörmətinin qorunması və onlarla düzgün davranış qaydalarını qeyd edib. O Həzrət (ə) həyata aid işlərin idarə edilməsi, insanlar arasında iş bölgüsü aparılması kimi məsələlərdən də danışıb və məktubu özünü Allaha tapşırmağı və ondan dünya və axirət xeyri istəməyi tövsiyə etməklə sona çatdırıb.

Qeyd edilən mövzuları nəzərə alanda bu məktubun məzmununun təlim-tərbiyə baxımından nə qədər böyük əhəmiyyətə malik olduğunu əziz oxucular da təsdiqləyər.

Qeyd edilməsi lazım olan digər məsələ budur ki, “Nəhcül-bəlağə”nin əksər nüsxələrinə əsasən, bu məktub İmam Həsən Müctəbaya (ə) ünvanlanıb. Bu məktubun nəql edilmə yollarının əksəriyyətində (Əllamə Tustəri bu məktubun şərhində onların sayının beş olduğunu deyib) o, İmam Həsənə (ə), təkcə bir nüsxədə isə Məhəmməd ibn Əbubəkrə ünvanlanıb. “Nəhcül-bəlağə”nin bəzi şərhçiləri onun Məhəmməd ibn Əbubəkrə ünvanlanmasında israrlıdırlar. Onların bu israrda dəlili məktubun bəzi cümlələrinin onun müxatəbinin məsum olması ilə uyğun gəlməməsidir. Lakin bildiyimiz kimi, öyüd və atanın övlada nəsihət verdiyi məqamda bu cür ifadələrdən istifadə edilməsi geniş yayılmış haldır. Əsas məsələ budur ki, bu məktub bir nəfərə ünvanlansa da, onun məqsədi bütün şiələr və müsəlmanlar, hətta bütün Adəm övladlarıdır. İmam (ə) sanki bütün insanların atası kimi çıxış edir və onun müxatəbi olan İmam Həsən (ə) bütün övladları təmsil edir.

Bəziləri deyir ki, imamət və məsumluq məqamına malik olduğu üçün İmamın (ə) öyüd-nəsihətə ehtiyacı yoxdur. Lakin bu, səhv fikirdir. Çünki imamət və məsumluq məqamı əsla mühüm əxlaqi məsələlərə təkid edilməsi ilə ziddiyyət təşkil etmir. Buna görə də İmam (ə) şəhidlik yatağına düşəndə İmam Həsənlə (ə) Imam Hüseynə (ə) adbaad xitab edərək bir sıra göstərişlər verib, halbuki onlar həmin məsələlərdən heç də qafil deyildilər.

Həmçinin bəziləri deyiblər ki, İmam (ə) bu məktubu yazanda İmam Həsənin (ə) yaşı otuzdan yuxarı olub və bu, Əmirəlmömininin (ə) gəncin qəlbinin hər cür təlimi qəbul etməyə hazır olması barədə buyurduqları ilə ziddiyyət təşkil edir. Lakin bu da düzgün yanaşma deyil. Çünki insan otuz yaşında olanda hələ də gənc sayılır. Bundan əlavə, öncə də işarə etdiyimiz kimi, bu məktub, əslində, Əmirəlmöminin Əlinin (ə) övladları olaraq bütün insanlara ünvanlanıb.

"Əl-İmamət vəs-siyasət" kitabında yazılıb ki, Səqifə hadisəsi zamanı Əbu Übeydə Cərrah Əmirəlmöminin Əlini (ə) xəlifəlikdən kənar saxlamaq üçün belə deyib:

يَابْنَ عَمَّ إِنَّكَ حَدِيثُ السِّنِّ وَهَؤُلَاءِ مَشِيخَةُ قَوْمِكَ

(Əmioğlu, sən hələ gəncsən, amma bunlar (Əbubəkr və başqaları) sənin tayfanın təcrübəli ağsaqqallarıdır.)

Bildiyimiz kimi, həmin vaxt İmamın (ə) yaşı otuzdan yuxarı olub.

## BİRİNCİ HİSSƏ

Bu məktub ömrü sona çatmaqda olan, zəmanənin çətinliklərini etiraf edən, həyat günəşi batmaqda olan, (istəsə də, istəməsə də) dünyanın ötüb-keçməsi (və çətinlikləri) qarşısında təslim, dünyadan köçənlərin evlərində məskunlaşmış və sabah oradan köçəcək (şəfqətli və mehriban) atadan heç vaxt əldə edilməyəcək şeylər arzulayan, başqalarının qədəm basıb məhv olduğu (dünyadan köçdüyü) yola qədəm basmış, xəstəliklərə hədəf, zəmanəyə girov, bəla və müsibətlərə nişangah, dünyaya qul, qürur taciri, ölümə borclu və əsir, kədərlərlə müttəfiq, qəm-qüssələrə yoldaş, afət və bəlalara hədəf, nəfsi istəklərə məğlub, ölülərin canişini olan oğuladır.

## İKİNCİ HİSSƏ

(Allaha həmd-sənadan sonra) Dünyanın mənə arxa çevirdiyini, zəmanənin mənə hakim olduğunu və axirətin mənə üz tutduğunu bilməyim məni özümdən başqasını yada salmaqdan, dünyaya və onun əhlinə diqqət etməkdən saxlayıb. Bu diqqət mənim özüm haqda fikirləşməyimin camaat (və onların malik olduğu dünya malı) barəsində fikirləşməyimə mane olmasına, nəfsi istəklərimin qarşısını almağa, onun taleyimin həqiqətini mənim üçün aydınlaşdırmasına səbəb olub. Bu iş məni tam ciddi, zarafata yer olmayan, bütünlüklə doğruluqdan ibarət olan və yalan qatışığı olmayan bir mərhələyə çatdırıb. Səni vücudumun bir parçası, hətta onun hamısı hesab etdiyim üçün – çünki sən bir narahatlığa məruz qalanda sanki mən məruz qalıram və səni ölüm haqlayanda sanki məni haqlayır – sənin işin üçün çalışmağı öz işim üçün çalışmaq saydım və bu səbəbdən bu məktubu sənə yazdım ki, mənim sağ qalıb-qalmamağımdan asılı olmayaraq sənə arxa olsun.

## ÜÇÜNCÜ HİSSƏ

Oğlum, sənə ilahi təqva əldə etməyi, Onun əmrlərinə tabe olmağı, ruh və qəlbini Onu yada salmaqla abadlaşdırmağı və Onun (lütf və mərhəmət) ipindən yapışmağı tövsiyə edirəm. Əgər ondan yapışsan, səninlə Allah arasında hansı səbəb Allahın ipindən möhkəm və etibarlı ola bilər?!

## DÖRDÜNCÜ HİSSƏ

(Oğlum,) qəlbini öyüd-nəsihətlə dirilt, zahidliklə (dünyaya və onun bərbəzəyinə etinasızlıqla) öldür, yəqin ilə qüvvətləndir, hikmət və elmlə nurlandır, ölümü yada salmaqla ram et, dünyanın faniliyini etiraf etməyə məcbur et, dünyanın faciələrini göstərməklə qəlbinin gözünü aç, zəmanənin hadisələrinin hücumundan, gecə ilə gündüzün gərdişindən doğan çirkinliklərdən çəkindir.

Ona (nəfsinə) keçmişdəkilərin hekayələrini danış, səndən qabaqkı tayfaların başına gələn müsibətləri onun yadına sal, onların diyarlarında, (viranəyə çevrilmiş) qalıqlarında gəz, dolan, onların nə etdiklərinə, haradan köçdüklərinə və harada mənzil saldıqlarına yaxşı bax. Əgər keçmişdəkilərin vəziyyətinə nəzər salsan, onların öz dostlarından ayrılıb qürbət diyarında məskunlaşdığını görərsən. Çox keçmədən sən də onlardan biri olacaqsan (və həmin yolla onlara tərəf gedəcəksən).

## BEŞİNCİ HİSSƏ

Buna görə də gələcək yaşayış yerini abadlaşdır, axirətini dünyana satma. Bilmədiyin şey barəsində danışma, məsuliyyət daşımadığın işə müdaxilə etmə, azğınlıq təhlükəsi olan yola qədəm basma. Çünki azğınlıq qorxusu olan zaman özünü saxlamaq insanın özünü təhlükəli yollara atmasından daha yaxşıdır. Yaxşı işləri əmr et ki, yaxşılardan olasan, pis işləri əlinlə, dilinlə inkar et və pis iş görən şəxsdən ciddi şəkildə uzaq dur. Allah yolunda layiqli şəkildə cihad et. Tənə vuranların tənəsi səni əsla Allah yolunda çalışmaqdan çəkindirməsin. Harada olmasından asılı olmayaraq haqqı əldə etmək üçün çətinliklər dəryasına baş vur. Dinin barədə elm əldə et. (Dinin həqiqətlərini kamil şəkildə öyrən.) Özünü çətinliklər qarşısında dözümlü olmağa alışdır. Haqq yolda dözümlü və səbirli olmaq çox gözəl xüsusiyyətdir.

## ALTINCI HİSSƏ

Bütün işlərində özünü Allaha tapşır. Əgər belə etsən, özünü etibarlı və qüdrətli sığınacağa tapşırmış olarsan. Dua edəndə Rəbbini ixlasla çağır (və yalnız Onun ətəyindən yapış). Çünki bağışlamaq da, məhrum etmək də Onun əlindədir. Allahdan sənə xeyir və yaxşılıq nəsib etməsini çox dilə. Vəsiyyətimi yaxşı dərk et, ona səhlənkar yanaşma. Çünki ən yaxşı söz fayda verən elmdir. Bil ki, fayda verməyən bilikdə xeyir yoxdur. Öyrənilməsi münasib olmayan elmdə fayda yoxdur.

## YEDDİNCİ HİSSƏ

Oğlum, yaşımın artdığını, qüvvələrimin zəiflədiyini görüb sənə bu vəsiyyəti etməyə (yazmağa başladım və onda mühüm məqamları qeyd etdim ki, birdən zehnimdə olanları deməmiş əcəlim çatar. Buna görə də (zamanın keçməsi nəticəsində) cismimdə nöqsan yarandığı kimi, fikir və düşüncəmdə də nöqsan yaranmamışdan, nəfsi istəklər və dünyanın fitnələri sənə hücum etməmişdən və sən ram olmayan miniyə çevrilməmişdən qabaq səni öyrətməyə və tərbiyə etməyə başladım. Şübhəsiz, gəncin qəlbi boş yerə bənzəyir və səpilən hər bir toxumu qəbul edir. Buna görə də qəlbin daşlaşmamış və zehnin başqa işlərə məşğul olmamış səni ədəbləndirməyə təşəbbüs göstərdim. Bütün bunlar ona görədir ki, sən əzmkarlıqla düşüncə və təcrübə sahiblərinin çox axtarış aparmağa möhtac olmayasan və çox çalışmaqdan qurtulasan deyə, sənin axtarmaq ehtiyacını aradan qaldırdıqları, sınamaq zəhmətini çəkdikləri şeylərin pişvazına gedəsən. Beləliklə, təcrübələrdən bizim qazandıqlarımız (heç bir zəhmət çəkmədən) sənə də nəsib olar, hətta bəlkə də, bizə gizli qalan bəzi şeylər (zaman keçdikcə və daha artıq təcrübə ilə) sənə aydınlaşar.

## SƏKKİZİNCİ HİSSƏ

Oğlum, məndən qabaqkılar qədər yaşamasam da, onların davranışına baxmış, hekayələri barədə düşünmüş, qalıqlarında gəzib-dolanmış, nəticədə, onlardan biri kimi olmuşam. Hətta onların tarixindən mənə gəlib çatmış şeylər (və öyrəndiklərim) nəticəsində sanki əvvəldən axıra kimi hamısı ilə birgə yaşamışam. (Mən bunların hamısını araşdırmış, sonra) safını tutqunundan seçmiş, xeyir-ziyanını bilmişəm. Sonra onların hamısının arasından sənin üçün hər bir işin ən seçməsini götürmüş, onların (çirkin ilə gözəlinin) arasından sənin üçün gözəlini seçmiş, məchullarını səndən uzaqlaşdırmışam. Mehriban ata övladı üçün gözəlliklərin ən yaxşısını istədiyi kimi, mən də səni bu yolla tərbiyə etməyi məsləhət bildim, səyimi bu işə yönəltdim. Çünki sənin ömrünün üzü qabağadır, zəmanənin başlanğıcındasan, sağlam niyyət və saf ruha maliksən.

## DOQQUZUNCU HİSSƏ

Fikirləşdim ki, sənə əvvəlcə Allahın kitabını, onun təfsirini, əsasını, hökmlərini, halal-haramını öyrədim və səni ondan başqa şeyə yönləndirməyim. (Çünki ondan başqası sənin yolunu azmağına səbəb ola bilər.) Sonra nəfsi istəklərin və batil əqidələrin arxasınca getmək nəticəsində insanları şübhəyə salan və onların, barəsində ixtilafa düşdüyü şeyin səni də şübhəyə

salmasından qorxdum. Buna görə də həmin məsələyə aydınlıq gətirməyi özümə vacib bildim. Düzdür, onu (həmin şübhələri) açıq şəkildə bəyan etmək ürəyimcə deyildi, amma mənə onların qeyd edilməsi sənin məhvediciliyindən, səni əmin olmadığım işə təslim etməkdən daha xoşdur. Allahın səni məqsədinə çatmaqda müvəffəq edəcəyinə, niyyətində tutduğun doğru yola istiqamətləndirəcəyinə ümid edirəm. Bu vəsiyyətimi sənə buna görə yazdım.

## ONUNCU HİSSƏ

Oğlum, bil, vəsiyyətlərimin arasında möhkəm yapışmalı olduğun ən sevimli şey təqva, Allahın sənə vacib etdiyi ilə kifayətlənmək, keçmişdə atalarının qət etdiyi, nəslindən olan əməlisaleh insanların getdiyi yol ilə hərəkət etməkdir. Çünki sən özünə nəzər saldığın kimi, onlar da özlərinə nəzər salıblar, sən (öz xeyrin barədə) fikirləşdiyin kimi, onlar da fikirləşiblər (səninlə onların arasında bircə bu fərq var ki, onlar özlərindən sonra sənə təcrübə qoyub gediblər). Fikir və düşüncə sonda onları bu nəticəyə gətirib çıxarıb ki, yaxşı tanıdıqlarını götürsünlər, (qaranlıq qalan və) məsuliyyət daşımadıqları şeyi boşlasınlar. Əgər ruh və canın onu (bu təklifi) qəbul etməkdən imtina edirsə və sən bilməyincə addım atmaq istəmirsənsə, bu istək şübhələrə qərq olmaq, düşmənçilik etməklə deyil, (düzgün yol ilə hərəkət etməklə) başa düşmək, diqqət etmək və öyrənməklə həyata keçirilməlidir.

(Bundan əlavə) bu işlər barədə məlumat əldə etmək yoluna qədəm qoymamışdan qabaq Allahdan kömək dilə, müvəffəqiyyət qazanmağa meyil və rəğbət göstər, fikrində pozğunluq yaranmasına səbəb olan, ya səni şübhəyə, yaxud azğınlığa salan hər bir amildən çəkin.

Qəlb və ruhunun saflaşaraq haqq qarşısında təslim olmasına, fikrinin kamilləşərək bir yerə toplanmasına və bu barədəki qərarının vahid qərar olmasına yəqin edəndən (ondan başqa hər şeydən vaz keçəndən) sonra (bu vəsiyyətnamədə) sənə izah etdiklərimə diqqət et (ki, lazımi nəticəni əldə edəsən). Əgər bu barədə (qeyd etdiklərimdən) istədiyin hasil olmasa, zehni asudəlik və fikri hazırlıq əldə edə bilməsən, bil ki, gözü zəif dəvə kimi uçuruma doğru hərəkət edir, qaranlıqlara yuvarlanırsan. Səhvə yol verən, haqq ilə batili bir-birinə qarışdıran şəxs dini istəyən ola bilməz. Belə halda bu mərhələyə daxil olmamağın daha yaxşıdır.

## ON BİRİNCİ HİSSƏ

Oğlum, vəsiyyətimi başa düşməyə diqqət göstər. Bil ki, ölümün sahibi həyatın da sahibidir, yaradan öldürəndir, yox edən dünyaya yeni quruluş verəndir, xəstələndirən şəfa verəndir. Dünya ancaq Allahın müəyyənləşdirdiyi kimi – bəzən nemət, bəzən çətinlik və nəhayət, Qiyamət günü veriləcək qarşılıq, yaxud Onun istədiyi və sənin bilmədiyin şey (dünya cəzaları) üzərində dayanıb. Əgər bu işlərdən (və dünyanın hadisələrindən) hər hansı birini başa düşməkdə çətinlik çəksən, onu öz nadanlığının ayağına yaz (və etiraz etmə). Çünki sən yaradılışının əvvəlində nadan idin, sonra bilik sahibi oldun. Sənin hələ bilmədiyin, düşüncənin sərgərdan qaldığı, gözünün səhvə yol verdiyi, amma bir müddət sonra gördüyün (və hikmətini dərk etdiyin) işlər çoxdur. Buna görə də səni yaradan, ruzi verən və yaradılışını nizama salan kəsdən yapış, yalnız Ona ibadət et, yalnız Ona rəğbət və məhəbbət bəslə, yalnız On(a qarşı çıxmaq)dan qorx.

## ON İKİNCİ HİSSƏ

Oğlum, bil ki, Allah barəsində heç kəs İslam Peyğəmbəri (s) kimi xəbər gətirməyib (və Allahın hökmlərini heç kəs o Həzrət (s) kimi bəyan etməyib). Buna görə də onu rəhbər olaraq qəbul et, nicat və qurtuluş yolunda onu özünə başçı seç. Mən sənə öyüd-nəsihət verməkdə heç nəyi əsirgəmədim. Sən öz xeyrin barədə məlumat əldə etmək istiqamətində nə qədər çalışsan da, mənim sənin barəndə gəldiyim qənaət həddinə çata bilməzsən.

## ON ÜÇÜNCÜ HİSSƏ

Oğlum, bil ki, əgər Rəbbinin şəriki olsaydı, onun elçiləri sənin yanına gələrdi və sən onun səltənət və qüdrət nişanələrini görər, iş və sifətlərini tanıyardın. Lakin O, Özünü vəsf etdiyi kimi təkdir.

Səltənətində heç kəs Ona qarşı çıxmır. O, heç vaxt zavala uğramayacaq, həmişə mövcud olub. O, varlıq silsiləsinin əvvəlidir, amma başlanğıcı yoxdur, onların sonuncusudur, amma Onun sonunun olması təsəvvür edilə bilməz. O, rübubiyyəti düşüncə və ya göz tərəfindən əhatə edilməyəcək qədər böyükdür.

Bu həqiqəti dərk etdikdən sonra qədir-qiyməti kiçik, qüdrəti az, acizliyi çox və Rəbbinə ehtiyacı böyük olan sənin kimisinə layiq olan tərzdə əməl etmək istiqamətində çalış. Ona itaət yolunda səy göstər, cəzasından qorx, qəzəbindən çəkin. Çünki o, sənə yaxşılıqdan başqa bir şey əmr etməyib və səni çirkin işlərdən başqa bir şeydən çəkindirməyib.

## ON DÖRDÜNCÜ HİSSƏ

Oğlum, səni dünyadan, onun necəliyindən, faniliyindən və dəyişməsindən xəbərdar etdim, sənə axirət və orada onun əhli üçün hazırlanmış şeylər barədə məlumat verdim, onların hər ikisi barədə misallar çəkdim ki, onlardan ibrət götürə, düzgün yola qədəm qoyasan.

Dünyanı yaxşı sınamış şəxslər (bilirlər ki, onlar) suyu və abadlığı olmayan (qalıb yaşamaq mümkün olmayan) yaşayış yerinə daxil olmuş müsafirlər kimidirlər. Bu səbəbdən onlar neməti bol və (yaşamaq üçün) rahat yaşayış yerinə doğru hərəkət etmək qərarına gəliblər. Buna görə də (onlar həmin mənzil başına çatmaq üçün) yolun məşəqqətlərinə dözüblər, dostların ayrılığını qəbul ediblər, səfərin sərtlik və çətinliyini, yeməklərin dadsızlığını (cani-dildən) qəbul ediblər ki, geniş ev və rahat yaşayış yerinə qədəm bassınlar. Odur ki, onlar bu narahatlıqların heç birindən ağrı-acı hiss etmir, bu yolda xərclədiklərini ziyan saymırlar. Onlar üçün onları mənzillərinə yaxınlaşdıran, asayiş yerlərinə çatdıran şeydən sevimli bir şey yoxdur.

Dünyaya aldanan kəslər isə naz-nemətlə dolu mənzildə olan və sonra onlara quru və heç bir neməti olmayan yaşayış yerinə köçməli olduqları deyilən dəstə kimidirlər. (Şübhəsiz) onlar üçün olduqlarından ayrılmaqdan, tərəfinə hərəkət etməli olduqları şeydən və qarşıda onları gözləyən taledən mənfur və fəlakətli şey yoxdur.

## ON BEŞİNCİ HİSSƏ

Oğlum, özünü özünlə başqaları arasında mühakimə meyarı et. Özün üçün bəyəndiyin şeyi başqaları üçün də bəyən, özün üçün bəyənmədiyin şeyi onlar üçün də bəyənmə. Sənə zülm edilməsini istəmədiyin kimi, sən də başqalarına zülm etmə. Sənə yaxşılıq edilməsini istədiyin kimi, sən də başqalarına yaxşılıq et. Başqalarında çirkin saydığın şeyi özündə də çirkin say. Camaatın sənə nəyi etməsinə razısansa, sən də həmin şeyi onların barəsində rəva bil. Bildiyin az olsa da, bilmədiyin şeyi demə. Sənin barəndə deyilməsini istəmədiyin şeyi sən də başqaları barədə demə.

## ON ALTINCI HİSSƏ

(Oğlum!) Bil ki, özünü bəyənmək və məğrurluq dürüstlüyə və sağlam düşüncəyə zidd, ağılın bəlasıdır. Buna görə də dolanışığını təmin etmək üçün son dərəcə səy göstər (və əldə etdiyindən Allah yolunda xərclə), başqalarının

xəzinədarı olma. (Allahın lütfü ilə) doğru yola gələndə (Rəbbinə şükür etməyi unutma və) Rəbbinin qarşısında təvazökar və müti ol.

## ON YEDDİNCİ HİSSƏ

(Oğlum!) Bil ki, qarşında çox uzun və çətin bir yol var. Sən bu (qorxulu və təhlükəli) yolda düzgün və çox çalışmağa, səni məqsədə çatdıracaq miqdarda azuqəyə möhtacsan. Bundan əlavə, bu yolda yükün yüngül olmalıdır (ki, məqsədə çata biləsən). Buna görə də dünya malı barədə boynuna gücündən artıq məsuliyyət götürmə. Çünki onun ağırlığı sənin çətinlik çəkməyinə səbəb olacaq.

Əgər imkanın olanda sənin azuqəni Qiyamət gününə aparacaq və sabah möhtac olduğun zaman sənə qaytaracaq bir yoxsul tapsan, onu qənimət bil və həmin azuqəni (tez və) çox miqdarda ona yüklə. Çünki ola bilər ki, bir gün onu axtarasan, amma tapmayasan. (Həmçinin) əgər ehtiyacın olmayan zaman səndən borc alıb onun qaytarılmasını çətinlik və ehtiyac içində olduğun günə saxlayan şəxs tapsan, onu qənimət bil.

## ON SƏKKİZİNCİ HİSSƏ

(Oğlum!) Bil ki, sənin qarşında çox çətin bir aşırım var. (Orada) yükü yüngül olanların vəziyyəti yükü ağır olanlardan yaxşı, ağır tərpənənlərin vəziyyəti tələsənlərdən pisdir. (Bil!) Həmin aşırımı keçəndən sonra sənin düşəcəyin yer, mütləq, ya Cənnət olacaq, ya da Cəhənnəm. Buna görə də ora daxil olmamışdan qabaq özünə lazım olan ləvazimatı tədarük gör və mənzilini ora düşməmişdən qabaq hazırla. Çünki ölümdən sonra üzrxahlıq etmək mümkün deyil və dünyaya qayıtmağa (və yol verilmiş nöqsanları aradan qaldırmağa) yol yoxdur.

## ON DOQQUZUNCU HİSSƏ

(Oğlum!) Bil ki, göylərin və yerin xəzinələri əlində olan kəs sənə dua etmək və istəmək icazəsi verib və onun qəbul edilməsinə zəmanət verib. Sənə vermək üçün istəməyini, mərhəmətini sənə şamil etmək üçün mərhəmətini diləməyini əmr edib. Allah səninlə Özü arasında Onu səndən ayıracaq bir kimsə qoymayıb, səni hər hansı bir şəfaətçiyə sığınmağa məcbur etməyib, pis iş görəndə tövbə etməyinə mane olmayıb (üzünə tövbə qapılarını açıb), səni cəzalandırmağa tələsməyib (tövbə etmək ehtimalın olduğu üçün onu gecikdirib). O, (bəziləri tövbə edənlərdən intiqam almaq üçün onları qınaq atəşinə tutduqları kimi) səni heç vaxt tövbə etdiyinə görə məzəmmət etmir və

hətta rüsvay edilməyə layiq olduğun yerdə səni (səhvə yol verənləri dərhal rüsvay edən bəzi dardüşüncəli insanlar kimi) rüsvay etməyib, (dayaz insanlar kimi) tövbənin qəbul edilməsində səni əziyyətə salmayıb, günahlarının hesablanmasında dərinə getməyib (onların üstündən rahatlıqla keçib). Səni (günahın nə qədər böyük və ağır olsa da) heç vaxt Öz mərhəmətindən naümid etməyib, əksinə, sənin özünü günahdan saxlamağını yaxşı iş kimi dəyərləndirib, (hətta) sənin günahını bir günah, yaxşı işini isə on qat hesab edib. Tövbə, qayıdış və üzrxahlıq qapısını (həmişə) üzünə açıq saxlayıb. Belə ki nə vaxt çağırsan, səsini eşidər, nə vaxt pıçıldasan, başa düşər. Beləliklə, ehtiyacını Ona çatdırar, dərgahında özünü olduğun kimi göstərər, dərd-qəmini Onunla bölüşər, çətinlik, dərd və narahatlıqlarının aradan qalxmasını Ondan istəyər, işlərində Ondan yardım diləyərsən. Ömürün uzunluğu, cansağlığı və ruzi bolluğu kimi başqalarının verə bilmədikləri şeyləri Onun rəhmət xəzinələrindən istəyə bilərsən. Sonra Allah Ondan istəmək icazəsi verməklə xəzinələrinin açarlarını sənə verib. Buna görə də bir istəyin olanda dua vasitəsilə Rəbbinin nemət qapılarını aça, Onun rəhmət yağışını yağdıra bilərsən. Duanın gec qəbul olması səni əsla məyus etməməlidir. Çünki Allahın bəxşişi (bəndələrin) niyyət(i) miqdarındadır. Bəzən duanın qəbul olması onu edənin mükafatının artması, arzu edənlərin bəxşişini çoxaltmaq üçün gecikir. Bəzən də Allahdan bir şey istəyirsən və həmin şey sənə verilmir, amma qısa, ya uzun müddətdən sonra sənə ondan daha yaxşı şey veriləcək, yaxud Allah onu sənin üçün ondan daha yaxşı şeylə əvəz edəcək. Bəzən də sən Allahdan əldə edəcəyin təqdirdə dininin məhv olmasına səbəb olan şey istəyirsən (Allah da onu sənə vermir, əvəzində sənə daha yaxşı şey verir). Buna görə də gərək həmişə Allahdan gözəlliyi sənə qalan, vəbal və pisliyi səndən uzaq olan şeyi istəyəsən. (Amma bil ki, dünya malı belə deyil.) Mal sənə qalmır, sən də ona qalmayacaqsan.

## *İYİRMİNCİ HİSSƏ*

(Oğlum!) Bil ki, sən dünya üçün deyil, axirət üçün, (bu dünyada) qalmaq üçün deyil, yox olmaq üçün və (bu dünyada) yaşamaq üçün deyil, ölmək üçün yaradılmısan. Sən hər an köçmək ehtimalın olan mənzildə, azuqə götürməli olduğun diyarda, axirətinə gedən yoldasan. (Bil!) Sən əlindən qaçanın qurtula bilmədiyi, axtardığını əldən çıxarmayan və sonda, mütləq, haqlayan ölüm üçün bir ovsan (o, səni təqib edir və sonda, mütləq, ovlayacaq). Buna görə də ölümün səni pis vəziyyətdə (günah halında) olduğun zaman, (ölüm çatmamışdan) özünlə tövbə etmək barədə danışanda haqlamasından, səninlə

tövbə arasında ayrılıq salmasından qorx. Onda (əgər belə olsa,) sən özünü məhv etmiş olarsan.

## İYİRMİ BİRİNCİ HİSSƏ

Oğlum, ölümü, tərəfinə gedəcəyin şeyi və ölümdən sonra düşəcəyin vəziyyəti o qədər çox yada sal ki, ölüm sənin yanına gələndə özünü (hər cəhətdən) hazırlamış, kəmərini bağlamış olasan. Məbada ölüm səni qəflətən haqlasın və məğlub etsin! Dünyapərəstlərin dünyaya möhkəm ürək bağlamasının, hərisliklə ona hücum etməsinin səni aldatmasından qorx. Çünki Allah səni dünyanın vəziyyətindən xəbərdar edib. Dünya özü də öz faniliyindən xəbər verib, pisliklərini sənə göstərib. Dünyapərəstlər (leşə sahiblənmək üçün) daim (bir-birinin üstünə) hürən itlər və bir-birini parçalamaq istəyən yırtıcılar kimidirlər. Onlar bir-birinin qarşısında nərildəyir, zingildəyir, güclülər zəifləri yeyir, böyüklər kiçikləri məğlub edirlər. Yaxud onlar əl-ayaqları (güclülər tərəfindən) bağlanmış(onların quluna çevrilmiş) dördayaqlılar kimidirlər. Onların digər qismi (nəfsi istəklər) çöl(ündə (başlı-başına) buraxılmış heyvanlar kimidirlər, ağıllarını itiriblər (doğru yolu əldən çıxarıblar), naməlum yollarda addımlayırlar. Onlar afətlərlə dolu çöldə başlı-başına buraxılmış, nahamar yerdə yola düşmüş heyvanlar kimidirlər, nə doğru yola istiqamətləndirəcək çobanları, nə də münasib otlağa çatdıracaq bir kimsələri var. Dünya onları korluq yoluna salıb, hidayət nişanələri qarşısında gözlərini kor edib. Nəticədə, onlar çaşqınlıq çölündə sərgərdan qalıblar, dünyanın nemətlərinə və bərbəzəyinə qərq olublar, onu özlərinə məbud seçiblər. Dünya onları ələ salıb, onlar da başlarını dünya ilə oynamağa qatıblar, ondan sonra gələcək şeyləri unudublar.

## İYİRMİ İKİNCİ HİSSƏ

Bir az möhlət ver (azca səbir et), qaranlıq tezliklə açılacaq (həqiqət üzə çıxacaq). Deyəsən, kəcavələr (müsafirlər) gəlib çatıb (onlar ömürün sonunu öz gözləri ilə görürlər). Sürətli hərəkət edənin mənzil başına (ölümə) çatması yaxındır.

Oğlum, bil ki, miniyi gecə ilə gündüz olan kəsi aparırlar və o, özünü hərəkətsiz zənn etsə də, hərəkətdə olar, zahirdə dayanmış halda və istirahətdə olsa da, durmadan məsafə qət edər.

## İYİRMİ ÜÇÜNCÜ HİSSƏ

Yəqin bil ki, heç vaxt bütün arzularına çatmayacaq, heç vaxt əcəlindən o tərəfə keçə (müəyyənləşdirilmiş ömür müddətindən artıq yaşaya) bilməyəcəksən. Sən səndən əvvəlkilərin yolundasan (onlar bu dünyadan köçüb gediblər, sən də gedəcəksən). Belə isə, dünya (malı) əldə etməkdə həddi aşma, işləyib qazanc əldə etməkdə mötədil ol. Çünki əksər hallarda (dünya malı istiqamətində) çox çalışmaq (malın) məhv(in)ə səbəb olur. (Bundan əlavə) nə hər çalışan ruzi əldə edir, nə də hər mötədil məhrum olur.

Nəfsini (şəxsiyyətini) hər hansı bir alçaqlığa meyil göstərməkdən hətta alçaqlığa meyil göstərmək səni istəklərinə çatdırsa belə üstün tut (özünü alçaltma). Çünki sən şəxsiyyətindən bu yolda itirdiyin şeyin münasib qarşılığını əsla əldə edə bilməyəcəksən. Başqasına qul olma. Allah səni azad yaradıb. Nə pisliklə əldə edilən yaxşılıq yaxşılıqdır, nə də (hədsiz çətinliklə əldə edilən asayiş və rahatlıq!

Tamah miniklərinin səni sürətlə özü ilə aparıb həlak çeşmələrinin başına atmasından çəkin. Əgər səninlə Allah arasında hər hansı bir nemət sahibinin vasitəçi olmamasına nail ola bilsən, elə et! Çünki sən (hər halda) öz nəsibini alacaq, payını əldə edəcəksən! Sənə Allah tərəfindən gələn az, Onun yaratdıqları tərəfindən gələn çoxdan daha dəyərlidir, hərçənd ki, bütün nemətlər (hətta yaradılmışlar tərəfindən gələnlər) Allah tərəfindəndir.

## İYİRMİ DÖRDÜNCÜ HİSSƏ

(Oğlum!) Susmaq nəticəsində əldən çıxardığın şeyin yerini doldurmaq danışmaq nəticəsində əldən çıxardığın şeyin yerini doldurmaqdan daha asandır. Qabın içindəkini onun qapağını bərk bağlamaqla qorumaq mümkündür. Mənə sənin öz əlində olanı qoruyub-saxlamağın başqasının əlində olanı istəməyindən daha xoşdur. Ümidsizliyin acısı (gözün insanların əlində olanlardan yığışdırılması) onlara əl açmaqdan daha yaxşıdır. Paklıq və dürüstlüklə əldə edilən (az) gəlir çirkinlik və günahla əldə edilən böyük sərvətdən daha xeyirlidir. İnsan öz sirrini daha yaxşı qoruyur. Çoxları öz ziyanına çalışır.

Çox danışan kəs çoxlu nalayiq və mənasız sözlər danışar. Düşüncəsini işə salan şəxs həqiqətləri görər, düzgün yolu seçər. Yaxşı və xeyir işlər görənlərə yaxınlaş ki, onlardan olasan. Pis işlər görənlərdən və şər adamlardan uzaq dur ki, onlardan ayrılasan. Ən pis yemək haram yemək, ən pis zülm zəif və acizə

zülm etməkdir. Yumşaqlıq və mülayimliyin sərtliyə səbəb olduğu yerdə sərtlik yumşaqlıq sayılar. O qədər dərmanlar xəstəliyə səbəb olur, o qədər xəstəliklər insana dərmandır ki! Bəzən nəsihət əhli olmayan kəslər nəsihət verir, nəsihət (əhli olan və nəsihət verməsi) istənilən kəs isə xəyanət edir.

Arzulara güvənməkdən çəkin. Çünki o, axmaqların sərmayəsidir. Ağıl təcrübələrin qorunub saxlanılmasıdır. Sənin təcrübələrinin ən yaxşısı sənə öyüd-nəsihət verən təcrübədir. Fürsəti əldən çıxmamış və qəmə çevrilməmişdən qənimət bil. Nə hər istəyən istədiyinə çatar, nə hər gözdən itən geri dönər. Azuqənin zay edilməsi bir növ puçluqdur və məadın puç olmasına səbəb olur. Hər bir işin bir sonu var (və onun sonuna diqqət etmək lazımdır). Sənin üçün müəyyənləşdirilmiş şey tezliklə sənə çatacaq. Hər bir tacir özünü təhlükəyə atır. (Elə hey mal və sərvətini artırmağa çalışma. Çünki) o qədər az sərmayə var ki, çox sərmayədən daha bərəkətli və daha artımlıdır. Alçaq köməkçidə və günahlandırılan dostda xeyir yoxdur. Nə qədər ki zəmanə ixtiyarındadır, ondan asan şəkildə bəhrələn. Özünü heç vaxt əlində olan nemətin daha artığını əldə etmək üçün təhlükəyə atma. İtaətsiz tərslik miniyinə minməkdən çəkin, çünki o, səni bədbəxt edər.

## İYİRMİ BEŞİNCİ HİSSƏ

(Oğlum!) Din qardaşın qarşısında özünü bu işlərə vadar et: o, əlaqəni kəsəndə sən bərpa et, o, küsüb uzaqlaşanda sən ona yaxınlaş, o, simiclik edəndə sən bəxşiş et, o, uzaqlaşanda sən yaxınlaş, o, sərtlik edəndə sən yumşaq davran, pis iş görəndə üzrünü elə qəbul et ki, sanki sən onun qulu, o isə sənin nemət verənindir. Lakin bu işi öz yerindən başqa yerdə görməkdən və ya onu ləyaqətsiz adam barədə etməkdən çəkin. Heç vaxt dostunun düşməni ilə dostluq etmə. Çünki bu halda dostunla düşmənçilik etmiş olarsan. Qardaşına səmimi-qəlbdən nəsihət ver, bu nəsihət (ona) istər yaxşı və xoş gəlsin, istərsə də pis və narahatedici. Qəzəbini qurtum-qurtum ud. Çünki mən ondan şirin, xoş sonluqlu və ləzzətli içki görməmişəm.

Səninlə kobud davranan kəslə yumşaq davran ki, tezliklə onun da sənin qarşında yumşalmasına ümid var. Düşməninlə lütf və alicənablıqla davran. (Əgər belə etsən,) bu halda iki qələbənin (kobudluqla və ya məhəbbət göstərməklə qalib gəlməyin) daha şirinini seçmiş olacaqsan. Qardaşlıq və dostluq əlaqələrini kəsmək istəyəndə barışıq üçün yer saxla ki, bir gün qayıtmaq istəsə, qayıda bilsin. Sənin haqqında yaxşı və xoş fikirdə olanın zənnini əməlinlə doğrult.

## İYİRMİ ALTINCI HİSSƏ

Səninlə qardaşın arasındakı mövcud dostluq və yaxınlığa arxalanıb onun hüququnu pozma. Çünki hüququnu pozduğun kəs sənin qardaşın olmayacaq. Ailən sənə qarşı camaatın ən bədbəxt və narahatı olmamalıdır. Sənə rəğbəti olmayan (sənə etinasızlıq göstərən və ya səni təhqir edən) kəsə rəğbət göstərmə. Qardaşın qardaşlıq əlaqəsini kəsməkdə sənin həmin əlaqəni bərpa etməyindən, həmçinin pislik etməkdə sənin yaxşılıq etməyindən güclü olmamalıdır. Sənə zülm edənin zülmü sənə heç vaxt ağır gəlməməlidir. Çünki əslində, o, öz ziyanına və sənin xeyrinə çalışır (öz günah yükünü ağırlaşdırır, sənin savab və mükafatını artırır). Şübhəsiz, səni sevindirənin mükafatı ona pislik etməyin deyil.

## İYİRMİ YEDDİNCİ HİSSƏ

Oğlum, bil ki, ruzi iki qisimdir: onun bir növünü sən axtarırsan (və elə axtarmalısan da), o biri növü isə özü səni axtarır və sən arxasınca getməsən də, o, özü sənin arxanca gəlir. Ehtiyac zamanı özünü (başqalarının qarşısında) kiçiltmək, ehtiyac olmayanda isə kobudluq etmək necə də çirkin xasiyyətdir! Dünya malının yalnız axirət evini düzəltdiyin miqdarı sənin olacaq. Əgər əldən çıxan şeyə görə narahat olub ah-zar etməlisənsə, onda sənə çatmayan şeylərin hamısına görə də narahat ol.

Keçmişdə baş vermiş şeylərlə hələ baş verməmiş şeylərə dəlil gətir. Çünki dünyanın işləri bir-birinə bənzəyir. İsrarla məzəmmət edilməyincə öyüd-nəsihətin fayda vermədiyi kəslərdən olma. Çünki ağıllı adamlar öyüd və ədəblə ibrət götürərlər, heyvanlar isə yalnız vurulmaqla. Kədər və qəm-qüssənin hücumunu özündən səbir və gözəl yəqin ilə uzaqlaşdır. Mötədilliyi tərk edən kəs haqq yoldan çıxar. (Bil! Yaxşı) dost və yoldaş qohum kimidir.

Dost dostluq haqqını dostu yanında olmayanda da əda edən kəsdir. Nəfsi istəklər kor şərikdir. Bəzi yadlar qohumlardan yaxın, bəzi qohumlar hamıdan uzaqdırlar. Qərib o adamdır ki, dostu yoxdur. Haqqı aşan sıxıntıya düşər. Öz dəyər və məqamı ilə kifayətlənən (onu aşmayan) kəsin malik olduğu dəyər və məqam davamlı olar. Möhkəm yapışa biləcəyin ən etibarlı vasitə Allahla öz aranda yaratdığın əlaqədir. Sənin hüquq və işinə əhəmiyyət verməyən kəs, əslində, sənin düşmənindir. Bəzən (tamah məhvə səbəb olanda) ümidsizlik bir növ məqsədə çatmaqdır. Hər gizli eyibin üstü açılmır, hər fürsətdən istifadə edilmir.

Bəzən bəsirətli şəxs səhv yol ilə gedir, kor məqsədə çatır. Pisliyi təxirə sal (onda tələsmə). Çünki onu istədiyin vaxt edə bilərsən. Nadanla əlaqələri kəsmək ağıllı ilə münasibət qurmağa bərabərdir. Zəmanə özünü onun hadisələrindən amanda sayan şəxsə xəyanət edər, onu böyük hesab edəni xar edər. Hər ox atanın oxu hədəfə dəyməz. Hökmdar dəyişəndə zəmanə də dəyişər. Səfərə çıxmamışdan qabaq yol yoldaşının, ev seçməmişdən qabaq isə qonşunun kimliyinə bax. Başqasından nəql etsən belə, gülünc (və mənasız) söz danışmaqdan çəkin.

## İYİRMİ SƏKKİZİNCİ HİSSƏ

(Ağlı az olan) qadınlarla məsləhətləşməkdən çəkin. Çünki onların baxışları natamam, qərarları süstdür. Hicabla onların yad kişiləri görməsinin qarşısını al. Çünki hicaba təkid onları daha sağlam və pak saxlayır. (Etibarsız adamları onların yanına gətirmə. Çünki) onların çölə çıxması sənin onların yanına inanılmayan və etibar edilməyən adamlar gətirməyindən pis deyil. Əgər onların səndən başqa heç kəsi (heç bir yad kişini) tanımamasına nail ola bilsən, elə et. Qadına onun öz işlərindən artıq iş həvalə etmə. Çünki o, eşikağası deyil, gül şaxəsidir.

Başqasına (yada) onun xatirinə hörmət etmə. Onun hörmətini elə həddə saxla ki, başqaları (yadlar) üçün vasitəçilik etmək fikrinə düşməsin. Qısqanclıq edilməməli yerdə qısqanclıq etməkdən (və işin xoşagəlməz bədgümanlıqla sona çatmasından) çəkin. Çünki bu yersiz qısqanclıq və yanlış bədgümanlıq pak qadını napaklığa, günahsızı çirkinliklərə sövq edər.

## İYİRMİ DOQQUZUNCU HİSSƏ

(Oğlum!) Xidmətçilərinin hər birinin işini müəyyənləşdir ki, onu həmin işə cavabdeh hesab edə biləsən. Çünki bu, onların sənin işlərini bir-birinin boynuna atmamasına (məsuliyyətdən boyun qaçırmamasına) səbəb olur. Qəbilə və qohumlarına hörmət et. Çünki onlar sənin vasitəsi ilə uçduğun qol-qanadın, tərəfinə qayıtdığın əsil-kökün, vasitəsi ilə (düşmənə) hücum etdiyin əlindir.

## OTUZUNCU HİSSƏ

Din və dünyanı Allaha əmanət et və Ondan bu günün və sabahın, dünyan və axirətin üçün ən gözəl müqəddəratı dilə. Vəssəlam!